


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 39 (23.451)

26 fevral 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Fevralın 25-də Azərbaycana səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub.

Həmin gün rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Fevralın 25-də Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası keçirilib.

Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub.

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.



## Azərbaycanın Qarsdakı Baş Konsulluğu Xocalı soyqırımı ilə bağlı tədbir keçirib



Fevralın 21-də Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğu tərəfindən Türkiyənin İqdır vilayətində Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı "Xocalıya ədalət!" devizi altında anım mərasimi təşkil olunmuşdur.

Tədbirdə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilmiş, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra Xocalı soyqırımı barədə film nümayiş olunmuşdur.

Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu Nuru Quliyev 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş Xocalı soyqırımının XX əsrin ən dəhşətli faciəsi olduğunu qeyd etmişdir. Baş konsul faciənin törədilməsinin səbəb və məqsədləri, onun soyqırımı aktı kimi tanıdılması istiqamətində görülən işlərdən ətraflı bəhs etmiş, Xocalı faciəsinin mahiyyətinin üzə çıxarılmasında və dünya ictimaiyyətinə çatdırılmasında ümummilli lider Heydər Əliyevin xüsusi rolunu vurğulamışdır.

Mərasimdə iştirak edən azərbaycanlı və türkiyəli alimlər çıxışlarında Xocalı soyqırımından və faciənin törətdiyi fəsadlardan bəhs etmiş, onun təcavüzkar Ermənistan tərəfindən məqsədli şəkildə həyata keçirildiyini bildirmişlər.

Tədbirdə Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı təşkil edilmiş hekayə, şeir, bədii kompozisiya və rəsm müsabiqəsinin qalibləri mükafatlandırılmışdır.

Sonra tədbir iştirakçıları Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı təşkil edilmiş sərgi ilə tanış olmuşlar.

**"Şərq qapısı"**

## Təbrizdə Xocalı soyqırımının 28-ci ildönümü qeyd olunub

*Fevralın 22-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilmişdir.*

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək erməni təcavüzkarları tərəfindən 1992-ci il fevralın 26-da Xocalı şəhərində azərbaycanlılara qarşı soyqırımı törədildiyini bildirmiş, faciənin başvermə səbəblərindən danışmışdır. Qeyd olunmuşdur ki, soyqırımına ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verilmiş və Xocalı həqiqətləri dünya ictimaiyyətinə çatdırılmışdır. Baş konsul ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü xarici siyasət nəticəsində dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən soyqırımının tanıdıldığını bildirmişdir.

Sonra Xocalı soyqırımının dəhşətlərindən və "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlərdən bəhs edən film nümayiş etdirilmişdir. Həmçinin mərasim iştirakçılarına faciəni əks etdirən videomateriallar, kitab, jurnal və bukletlər paylanılmış, soyqırımına həsr olunmuş fotostendə baxış olmuş, ehsan süfrəsi açılmışdır.



Mərasimdə İran İslam Respublikası Şərqi Azərbaycan Vilayətinin Baş Mədəniyyət və İslami İrşad İdarəsi baş direktorunun birinci müavini Əli Piruzmənəş, Şərqi Azərbaycan Vilayəti Mətbuat Evinin rəhbəri Murtəza Şəfii, İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb nümayəndəliyinin rəhbəri Əkbər İsazadə, Türkiyənin Təbrizdəki Baş Konsulluğunun əməkdaşları və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Təbriz şəhərində nəşr olunan "Sorxab" qəzetinin 20 fevral tarixli nömrəsində "Dünya ictimaiyyətinə çağırış: Xocalıya ədalət!" başlıqlı məqalə dərc olunmuşdur.

**"Şərq qapısı"**

## Naxçıvanın Bakıdakı Daimi Nümayəndəliyində Xocalı soyqırımının 28-ci ildönümü anılıb



Fevralın 25-də Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində Anadolu Aydınlar Ocağının sədri, professor İbrahim Öztekin rəhbərliyi ilə Türkiyədən gəlmiş elm adamlarından ibarət nümayəndə heyətinin və azərbaycanlı tarixçi alimlərin iştirakı ilə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbirdə Xocalı soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin, eyni zamanda Vətən uğrunda canlarını fəda etmiş Azərbaycan və Türkiyə şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov Xocalı faciəsi haqqında ətraflı məlumat verərək bu dəhşətli faciənin başəri cinayət olduğunu söyləyib, dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirildiyini, əsir götürülən insanların ağır işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqlarını bildirib.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə ilk dəfə olaraq dövlət səviyyəsində, siyasi-hüquqi müstəvidə qiymət verilib. Ulu öndərin səyi ilə faciə lokal məkandan çıxaraq beynəlxalq səviyyədə tanınmağa başlanıb. Xaricdə yaşayan soydaşlarımız bu işə cəlb olunub. Nəticədə, Azərbaycan həqiqətləri dünyaya çatdırılıb, beynəlxalq təşkilatların diqqəti regiona yönəldilib və Ermənistanın bölgədə apardığı təcavüzkar siyasət tamamilə ifşa olunub.

Bəxtiyar Əsgərov deyib ki, bu gün Xocalı soyqırımı dünyanın bir çox ölkələrində rəsmən tanınır və hər il faciənin ildönümləri qeyd edilir, bir çox xalqlar tərəfindən bu qətliam açıq şəkildə pislənir, lənətlənir. Eləcə də bir sıra ölkələrin qanunvericilik orqanları Xocalı faciəsinin soyqırımı kimi tanınmasına dair tarixi qərarlar qəbul etməkdədirlər.

Daimi Nümayəndəliyin rəhbəri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət kursu, erməni qəsbkarlığının ifşası istiqamətində uğurlu addımları öz bəhrəsini verməkdədir. Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqı və bütövlükdə insanlıq əleyhinə törədilmiş bu son dərəcə ağır qanlı cinayətin beynəlxalq miqyasda siyasi-hüquqi qiymət alması məsələsi dövlət siyasətinin mühüm istiqamətini təşkil edir.

Diqqətə çatdırılıb ki, hər il Xocalı faciəsinin qurbanlarının əziz xatirəsi Naxçıvan şəhərində, muxtar respublikanın rayon mərkəzlərində dərin ehtiramla anılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq Sərəncamı ilə yaradılan Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində faciə qurbanlarının xatirəsi yad edilir.

Daimi Nümayəndəliyin rəhbəri əminliyini bildirib ki, xalqımız və dövlətimiz tərəfindən Xocalı faciəsinin dünyada tanıdılması, nankor və məkrli qonşumuz olan ermənilərin iç üzünün aşkar edilməsi istiqamətində görülən işlər bundan sonra da davam etdiriləcək.

Türkiyəli qonaqlardan professor İbrahim Öztek Anadolu Aydınlar Ocağının adından Daimi Nümayəndəliyin rəhbərinə təşəkkürünü bildirib, dostluq və birlik rəmzi olan açıqcanı ona təqdim edib. İbrahim Öztek tərəfindən hazırlanmış, Xocalı soyqırımına həsr olunan videoslayd və Kərim Kərimovun erməni terrorizmini əks etdirən karikaturaları nümayiş etdirilib.

**AZƏRTAC**

## "Erməni vandalizminin iç üzü: Xocalı faciəsi" mövzusunda elmi konfrans



*AMEA Naxçıvan Bölməsində Xocalı faciəsinin 28-ci ildönümü ilə əlaqədar elmi konfrans keçirilib. Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Tədbiri giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycana qarşı ermənilərin törətdikləri başəri cinayətlərdən, eləcə də Xocalı soyqırımından danışıb. Bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə silahlı təcavüz və etnik təmizləmə siyasətinin bir hissəsi olaraq ermənilər Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərini mühasirəyə alıb, dinc əhalini qəddarcasına qətlə yetirib. Qətliam nəticəsində aralarında qadın, uşaq və qoca olan 613 mülki vətəndaş həyatını itirib.

Akademik Azərbaycan xalqına qarşı ermənilərin törətdiyi soyqırımı faciələrinə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində hüquqi-siyasi qiymət verildiyini vurğulayaraq bildirib ki, 1994-cü ildə dahi öndərin təşəbbüsü ilə Milli Məclisdə qəbul edilən müvafiq qərardan sonra 26 fevral Xocalı Soyqırımı Günü kimi qeyd olunur.

İsmayıl Hacıyev vurğulayıb ki, bu gün Azərbaycan dövləti ermənilərin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirir. O həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın beynəlxalq səviyyədə başlatdığı Azərbaycanın haqq səsini yayan layihələrdən, "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Azərbaycan həqiqətlərinin təbliğ olunmasından söz açaraq qeyd edib ki, ermənilərin xalqımızın başına gətirdiyi müsibətləri əks etdirən və xarici dillərdə nəşr olunan kitabların, filmlərin, fotosənədlərin dünyanın müxtəlif ölkələrində yayılması mühüm əhəmiyyət kəsb edir.

Konfransda bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdirləri – tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov "Xocalı faciəsinə gedən yol", Emin Şıxəliyev "Xocalı faciəsinin törədilməsində erməni terror təşkilatlarının fəaliyyəti" və institutun kiçik elmi işçisi Sevinc Babayeva "Xocalı faciəsi: insanlığa qarşı cinayət" mövzularında məruzələrlə çıxış ediblər.

Tədbirdə Xocalı faciəsinin dəhşətləri ilə bağlı fotoşəkillər slayd vasitəsilə nümayiş olunub.

***AMEA Naxçıvan Bölməsinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

## Bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı – Xocalı faciəsi

*Tarixin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının törədilməsindən 28 il ötür. Azərbaycanın Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları tərəfindən yerləyeksan edilib. Erməni şovinistlərinin qəddarlıqla həyata keçirdiyi bu amansız və qanlı cinayətdə Xocalı şəhərinin sakinləri son anadək özlərini qəhrəman kimi aparıb, axır nəfəslərinədək vuruşaraq düşmən qarşısında əyilməyiblər. Ümummilli liderimiz Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirərək deyirdi:* ***"Xocalı faciəsi bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır – vəhşiliyin görünməmiş bir təzahürüdür".***

Xocalı mühüm geostrateji mövqeyi ilə seçilir. Qarabağdakı yeganə hava limanı da məhz burada yerləşirdi. Ermənilərin diqqətini Xocalıya yönəltməsinin əsas səbəbi də bu şəhərin işğal edilməsi ilə Dağlıq Qarabağa nəzarətin tam ələ keçirilməsi, eyni zamanda hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Strateji mövqeyi ilə yanaşı, Xocalı həm də ölkəmizin zəngin tarixə malik ərazilərindən biridir. Bu ərazinin tarixində Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrləri mədəniyyətinə aid kurqanlar özünəməxsus yer tutur. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkara çıxarılmış, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Tarixçilər müəyyən ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti eradan əvvəl V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Xocalı mühüm arxeoloji abidələri ilə Azərbaycanın qədim tarixini özündə əks etdirdiyindən ermənilərin burada həyata keçirdikləri soyqırımının bir məqsədi də xalqımıza məxsus mədəniyyəti yer üzündən silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal ediləndən dərhal sonra onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı da xüsusi texnika ilə dağıdılmışdır.

Xocalının işğalı düşmənin əvvəlcədən hazırladığı plan üzrə baş tutmuşdu. Belə ki, Xocalı hələ 1991-ci ilin oktyabr ayından blokada vəziyyətinə alınmışdı. 1991-ci ilin oktyabrında Tuğ və Səlakətin kəndləri işğal olunandan sonra Xocavənd də ermənilərin nəzarəti altına keçmişdi. 1992-ci ilin yanvarında ermənilər Xocalı ətrafındakı Axullu, fevral ayında isə Malıbəyli və Quşçular kəndlərini işğal etdilər. Həmin kəndlərin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı 366-cı motoatıcı alayın, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş erməni muzdlu döyüşçülərin hesabına işğal olundu. Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə çox sayda raket qurğuları və zirehli texnikalar vardı. Fevralın ortalarından Xocalı erməni silahlıları tərəfindən mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tutulurdu. İşğal planı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təşkil olunmuş, Ermənistan silahlı qüvvələrinin bölmələri ilə yanaşı, keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı da 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etmiş, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Bu kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla, 613 dinc sakin qətlə yetirilmiş, 1275 nəfər isə əsir götürülmüşdür. Onlardan 150-nin taleyi hələ də məlum deyil. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən isə 76-sı uşaq idi.

Təəssüflər olsun ki, həmin dövrdə Azərbaycana rəhbərlik edənlər Xocalı soyqırımına biganə münasibət göstərmiş, xalqımıza qarşı törədilən cinayəti ört-basdır etməyə çalışmışlar. Yalnız həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan görkəmli dövlət xadimi Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq dünya ictimaiyyətini erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat $17^{00}$-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Azərbaycan xalqı Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanları ehtiramla yad edir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə Xocalı soyqırımının tanıdılması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülüb, xarici dillərdə kitablar nəşr olunub, filmlər çəkilib, Xocalı mövzusu müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilib, bununla bağlı internet saytları yaradılıb. Heydər Əliyev Fondu tərəfindən 2008-ci ildə "Xocalıya ədalət!" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyasının təsis edilməsi atılan mühüm addımlardandır. Prezident İlham Əliyevin 2014-cü il 13 fevral tarixli "Xocalıya ədalət!" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsi qərara alınıb. Bu istiqamətdə aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş olunur. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap edilir, televiziya və radiolarda verilişlər hazırlanır.

Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasət nəticəsində dünya dövlətləri də artıq ermənilərin törətdikləri bu soyqırımına öz münasibətlərini bildirir və Xocalı qətliamını kəskin pisləyirlər. 2010-cu ildə İslam Əməkdaşlıq Təşkilatı "Xocalıya ədalət!" kampaniyasını dəstəkləyən xüsusi qətnamə qəbul etmişdir.

İlbəil daha da qüdrətlənən, müdafiə potensialı artan Azərbaycan Ordusu artıq düşmənin çirkin niyyətləri qarşısında ən böyük və keçilməz maneəyə çevrilib. 2016-cı ilin aprel ayında növbəti dəfə atəşkəs rejimini pozan Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Ordusu tərəfindən torpaqlarımızın bir qisminin, 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndinin, Ağbulaq, Qızılqaya, Qaraqaya yüksəkliklərinin, ümumilikdə, 11 min hektar ərazinin işğaldan azad edilməsi də sübut etdi ki, xalqımız heç vaxt işğalla barışmayacaqdır. Problemin sülh və danışıqlar yolu ilə həll olunmasına sadiq qalan Azərbaycan artıq məsələnin hərbi müstəvidə qısa zaman ərzində həlli üçün də Ali Baş Komandanın əmrinə hazır olan müzəffər orduya malikdir.

**"Şərq qapısı"**

## Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilib



*Naxçıvan Dövlət Universitetində Xocalı faciəsinin dəhşətlərindən bəhs edən kitab sərgisi təşkil edilib.*

Tələbə və müəllimlər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində tarixi faktlara söykənən, Azərbaycan, türk, ingilis və rus dillərində nəşr edilmiş kitablarla tanış olub, sərgiyə baxıblar.

İncəsənət fakültəsinin sərgi salonunda isə faciə qurbanlarının əziz xatirəsinə ehtiram əlaməti olaraq 50-yə yaxın rəsm əsərinin nümayiş olunduğu sərgiyə baxış olub. Universitetin rektoru, dosent Elbrus İsayev bu cür sərgilərin keçirilməsinin tarixi həqiqətlərin yaşadılması və gələcək nəsillərə çatdırılmasında xüsusi əhəmiyyətini qeyd edib və gənc rəssamlara uğurlar arzulayıb.

Fakültənin akt zalında davam edən tədbirdə əvvəlcə soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Konfransı giriş sözü ilə açan rektor 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə baş vermiş Xocalı soyqırımını Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək qəddar və dəhşətli cinayət adlandırıb. Qeyd edilib ki, bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra dünya ictimaiyyətinə çatdırılıb.

Tələbələrin ifasında şeirlər bədii qiraət olunub. Sonra Tələbə Teatr Studiyasının Xocalı soyqırımı ilə bağlı kompozisiyası və film nümayiş edilib.

**Səadət ƏLİYEVA**

* * *



*"Naxçıvan" Universitetində Ümumi tarix kafedrasının təşkilatçılığı ilə "XX əsrin ən böyük faciəsi – Xocalı soyqırımı" mövzusunda keçirilən elmi konfransda əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Sonra universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, bəşər tarixinin ən amansız və qanlı hadisələrindən sayılan Xocalı soyqırımından 28 il ötür. Bu hadisə mənfur ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətinin növbəti mərhələsi idi. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilib.

Qeyd olunub ki, bu gün ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində faciənin əsl mahiyyəti beynəlxalq müstəvidə təbliğ olunur.

Sonra universitetin Ümumi tarix kafedrasının müəllimləri, dosent Asəf Orucovun "Xocalı soyqırımı xalqımıza qarşı törədilən faciələrin son halqasıdır", Salatın Rzazadənin "Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılması" və universitetin Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent Nüşabə Məmmədovanın "Xocalı faciəsi bədii ədəbiyyatda" mövzularında çıxışları dinlənilib.

Çıxışlarda yekun olaraq bildirilib ki, bu soyqırımı törədənlər gec-tez ədalət mühakiməsi qarşısına çıxacaq, öz dəhşətli cinayətlərinə görə cavab verməli olacaqlar.

Sonda Türkiyənin İstanbul Universitetinin professoru Haluk Tanrıverdinin "Xocalı faciəsi Türk dünyasının gözü ilə" mövzusunda çıxışı dinlənilib, tələbələrin hazırladığı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

**Seyfur HACIMURADOV**

* * *



*Naxçıvan Müəllimlər İnstitutunda Xocalı soyqırımına həsr olunmuş tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlamış və soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.*

Tədbiri giriş sözü ilə açan institutun rektoru Azad Novruzov qeyd etmişdir ki, Azərbaycanın keçən əsrdə ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımından 28 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri tərəfindən və Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhəri işğal edilmişdir. Bu işğal zamanı azərbaycanlılara qarşı əsl soyqırımı törədilmişdir. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilmişdir. Son iki əsrdə Azərbaycan torpaqları hesabına öz dövlətini yaratmış və onun ərazilərini Azərbaycan torpaqları hesabına genişləndirən erməni millətçiləri dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə siyasəti aparmışlar.

Sonra dosent Həsənəli Eyvazlı "Xocalı faciəsi xalqımızın unudulmaz qan yaddaşıdır" mövzusunda məruzə ilə çıxış etmişdir.

Tədbirdə tələbələrin hazırladığı ədəbi-bədii kompozisiyalar nümayiş olunmuş, Xocalı soyqırımını özündə əks etdirən rəsm sərgisinə baxış keçirilmişdir.

**Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti**

## Yekun seminar olub



*"Abituriyent-2020: Buraxılış və qəbul imtahanları, ixtisas seçimi" mövzusunda yekun seminar Ordubad rayonunun ümumtəhsil məktəblərinin XI siniflərində təhsil alan 260 şagirdin iştirakı ilə Mədəniyyət Evində keçirilib.*

Seminarda Ordubad Rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Əfqan Hüseynovun "Ötən ilin qəbul nəticələri və 2020-ci il qəbul imtahanlarına hazırlıq", Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Ayşən Əsgərovanın "2020-2021-ci tədris ili üçün bakalavriat səviyyəsi üzrə qəbul planı və 2020-ci ildə keçiriləcək qəbul imtahanının tərkibləri", Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucovanın "Buraxılış və qəbul imtahanlarına hazırlıq, ixtisas seçimi zamanı nələrə diqqət etməli", Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbin psixoloqu Nubar Abdullayevanın "Abituriyentlərə imtahanqabağı psixoloji dəstək" mövzularındakı çıxışları dinlənilib.

Seminarda abituriyentlərə buraxılış və qəbul imtahanlarına səmərəli hazırlıq üsulları, nəticələrə uyğun düzgün ixtisas seçiminin aparılması qaydası izah edilib, bundan əlavə, onlara keçiriləcək imtahanlara psixoloji cəhətdən hazır olmaları, imtahan dövrü nələrə diqqət etmələri ilə bağlı geniş məlumatlar verilib.

Bildirilib ki, Naxçıvanda IX siniflər üçün buraxılış imtahanlarının birinci mərhələsi martın 1-də, ikinci mərhələsi iyunun 14-də, XI siniflər üzrə isə buraxılış imtahanları aprelin 5-də keçiriləcəkdir.

Sonda sınaq imtahanında yüksək nəticə göstərənlərə diplom və qiymətli hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Yeni dövlət proqramının qəbulu baytarlıq təbabətinin inkişafına töhfəsini verəcək

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin baytarlıq xidməti səviyyəsinin daha da yüksəldilməsi məqsədilə imzaladığı müvafiq sərəncamla qəbul edilmiş dövlət proqramı muxtar respublika sakinləri tərəfindən onlara göstərilən yeni bir qayğı kimi dəyərləndirilib. Çünki baytarlıq elə bir sahədir ki, bütün cəmiyyətin sağlam həyat tərzində mühüm rol oynayır. Böyük mütəfəkkirlərdən birinin dediyi kimi, bir həkimin səhvi bir insanın taleyinə son qoyursa, bir baytarın səhvi bir cəmiyyəti məhv edə bilər. Muxtar respublikada bu sahədə həyata keçirilən tədbirlər, proqramda icrası nəzərdə tutulan məsələlərlə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Vəli Novruzovla həmsöhbət olub ona bir neçə sualla müraciət etdik:*

***– Vəli müəllim, əhalinin ekoloji təmiz və yerli ət məhsulları ilə təminatında baytarlıq xidmətinin böyük əhəmiyyəti var...***

– Qloballaşan dünyanın müasir vəziyyətinə narahatlıq gətirən çoxsaylı mənfi amillər mövcuddur. Buna misal olaraq qlobal iqlim dəyişikliyi, ərzaq ehtiyatlarının azalması, müxtəlif növ təhlükəli yoluxucu xəstəliklərin meydana gəlməsi, ekoloji mühitin korlanması ilə bağlı ərzaq məhsullarının keyfiyyətinin aşağı düşməsi, onların qiymətinin kəskin artması və digərlərini göstərmək mümkündür. Belə bir vəziyyətdə hər bir ölkə öz əhalisinin sağlamlığının qorunması üçün müxtəlif iqtisadi-siyasi tədbirlər



həyata keçirir. Bu işlərin görülməsində baytarlıq xidmətinin böyük əhəmiyyəti vardır. Baytarlıq xidməti insanların sağlam ərzaq məhsulları ilə təmin edilməsi, ev heyvanları arasında xəstəliklərin qarşısının alınması, insan sağlamlığı üçün təhlükəsiz heyvandarlıq məhsullarının istehsalı, habelə əhalinin müəyyən xəstəliklərdən mühafizəsi sahəsində elmi-praktik və təşkilati tədbirlər sistemidir.

Belə xidmət sahəsinin düzgün təşkili dövlət əhəmiyyətli iş hesab olunmaqla "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Baytarlıq xidməti ölkə ərazisinə xarici ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərinin qarşısını almaq, heyvanların yoluxan və yoluxmayan xəstəliklərinin profilaktikası, diaqnostika və müalicəsi ilə məşğul olmaq, əhalini heyvan və insanlar üçün ümumi olan xəstəliklərdən qorumaq, baytar-sanitariya qaydalarını təmin etmək kimi vəzifələri yerinə yetirir. Bununla yanaşı, baytarlıq xidmətinin funksiyalarına qanunvericiliklə müəyyən edilmiş qaydada heyvan kəsim məntəqələri, emal müəssisələri, tədarük, saxlanma, satış və digər yerlərdə baytar-sanitariya qaydalarına nəzarət etmək, həmçinin heyvan xəstəlikləri ilə mübarizə üsulları və vasitələri işləyib hazırlamaq da daxildir. Bu sırada baytarlıq preparatları və vasitələrinin, yem və yem əlavələrinin, biostimulyatorların, hormonların təhlükəsizliyinə və keyfiyyətinə qanunla müəyyən edilmiş qaydada nəzarət etmək, baytarlıq və heyvandarlıq sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər tərəfindən ətraf mühitin çirklənməsinin qarşısını almaq, baytarlıq elminin inkişaf etdirilməsi kimi məsələlərin həlli də vardır.

***– Bu istiqamətdə görülən işlər muxtar respublikada 20 ildən artıqdır ki, öz bəhrələrini verməkdədir. Son illərdə isə baytarlıq xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərin həcmi və coğrafiyası daha da genişlənib...***

– Digər sahələrə olduğu kimi, baytarlıq sahəsinin inkişafına da muxtar respublika rəhbəri tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Dövlət Baytarlıq Xidməti yaradıldığı vaxtdan bu günədək xidmətin inzibati binası, Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Naxçıvan Muxtar Respublikası Baytarlıq Laboratoriyası, Zoobaytar Təchizatı İdarəsi, Naxçıvan Şəhər Baytarlıq İdarəsi üçün binalar yenidən qurulub və ya əsaslı təmir olunub, dərmanların saxlanılması üçün soyuducu kameralar quraşdırılıb. Yeni baytarlıq idarələri və sahə baytar məntəqələri tikilib, onların maddi-texniki bazası gücləndirilib. Şərur, Sədərək, Şahbuz, Babək rayon baytarlıq idarələri üçün yeni binalar və buradakı laboratoriyalar müasir avadanlıqlarla təmin edilməklə istifadəyə verilib.

Təkcə ötən il ərzində Şərur rayonunun Kərimbəyli, Xələc, Yeni Havuş, Alışar, Muğanlı, Qışlaqabbas, Kəngərli rayonunun Böyükdüz, Babək rayonunun Gülşənabad, Kültəpə, Şahbuz rayonunun Türkeş, Ordubad rayonunun Dəstə kəndlərində, 2020-ci ilin əvvəlində isə Ordubad rayonunun Vənənd kəndində baytarlıq məntəqələri və ət satışı mağazaları tikilib, zəruri mebel və avadanlıqlarla təmin olunub.

Ümumilikdə, Dövlət Baytarlıq Xidmətinin strukturu xidmətin aparatı, Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Naxçıvan Muxtar Respublikası Baytarlıq Laboratoriyası, Zoobaytar Təchizatı İdarəsi, 8 şəhər və rayon baytarlıq idarəsi və 7 rayon baytarlıq laboratoriyası, 168 sahə baytarlıq məntəqəsi, 2 dəmiryol nəzarəti məntəqəsi, 8 baytar sanitar ekspertiza laboratoriyasından ibarətdir.

Ötən dövr ərzində həm də muxtar respublika üzrə heyvandarlıq təsərrüfatları inkişaf etdirilib, təkcə 2019-cu il ərzində 24 belə təsərrüfat yaradılıb, 7-nin genişləndirilməsi başa çatdırılıb, 19 təsərrüfatın yaradılması və 9-nun genişləndirilməsi isə davam etdirilib.

Heyvanların baş sayının süni mayalandırma yolu ilə artırılmasına gəldikdə isə ötən il ərzində heyvandarlıq təsərrüfatlarında 11 min 210 inək, düyə və camış süni yolla mayalandırılıb, 7530 sağlam bala alınıb. 1 yanvar 2020-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyaları üzrə qaramalın sayı 115 min 620, qoyun və keçilərin sayı 704 min 57, quşların sayı isə 1 milyon 307 min olub.

Arıçılıq sahəsində isə 2019-cu il ərzində 7 arıçılıq təsərrüfatının yaradılması, 2-nin genişləndirilməsi başa çatdırılıb, 7-nin yaradılması və 1-nin genişləndirilməsi isə davam etdirilib, arı ailələrinin sayı 99 min 798 olub.





***– Bir qədər də bu sahəyə davamlı dövlət qayğısının ifadəsi kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin növbəti sərəncamı barədə fikirlərinizi bilmək maraqlı olardı.***

– Muxtar respublika üzrə heyvanların, quşların, arı ailələrinin sayının artması, həmçinin bu diyarın yerləşdiyi coğrafi mövqe baytarlıq xidmətinin maddi-texniki bazasının daha da möhkəmləndirilməsini zərurətə çevirib və 2020-ci il fevral ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda baytarlıq sahəsində dövlət nəzarətinin tənzimlənməsi, dövlət nəzarəti və əlaqələndirmənin həyata keçirilməsi, muxtar respublikada heyvandarlıq məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi baxımından qeydiyyata alınması öz əksini tapıb. Həmçinin dövlət reyestrinin aparılması, heyvandarlıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqinə nail olunması, muxtar respublikada yoluxucu və parazitar xəstəliklərin baş verməsinin qarşısının alınması kimi məsələlər də önə çəkilib. Proqrama əsasən heyvan mənşəli qida məhsullarının ilkin istehsalı, tədarükü, emalı, qablaşdırılması, saxlanılması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları) də daxil olmaqla, qida zəncirinin bütün mərhələlərində məhsulların təhlükəsizliyinin təmin edilməsi qarşıya bir vəzifə olaraq qoyulub. Yeni heyvan, quş və balıq cinslərinin yetişdirilməsi, yerli arı genofondunun mühafizəsi, onlardan yüksəkkeyfiyyətli məhsul götürülməsi üçün zoobaytar qaydalarına əməl edilməsi işlərinin daha da təkmilləşdirilərək müasir dövrün tələblərinə uyğun səviyyədə həyata keçirilməsi də nəzərdə tutulub.

Proqramın icrasında xəstəliklər zamanı ənənəvi müalicələrə üstünlük verilməsi, heyvanların baş sayı, keçirdiyi xəstəliklər, aparılmış peyvəndləmə tədbirləri, birkalanmış heyvanlar və aid olduğu sahibkar haqqında məlumat bankının yaradılması da həyata keçiriləcək. Tələf olmuş heyvan cəsədlərinin ətraf mühitə atılmasının qarşısının alınması, muxtar respublikada özəl baytarlıq klinikalarının yaradılmasının dəstəklənməsi heyvandarlığa marağı daha da artıracaq. Naxçıvan şəhərində və rayonlarda heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanalar yaradılacaq, müayinə və analizlərin beynəlxalq standartlara uyğun şəkildə aparılması məqsədilə mövcud baytarlıq laboratoriyalarından səmərəli istifadə etməklə onların maddi-texniki bazasının gücləndirilməsi davam etdiriləcək.

Heyvanların cins tərkibinin yaxşılaşdırılması, məhsuldarlığın yüksəldilməsi, təbii yolla keçən xəstəliklərin qarşısının alınması məqsədilə süni mayalanma tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və əhali arasında maarifləndirmə işlərinin aparılması muxtar respublikada ekoloji təmiz heyvandarlıq məhsullarına olan tələbatın ödənilməsinə öz təsirini göstərəcək. Məlumdur ki, diyarımızda süni mayalanmaya üstünlük verilir. Dövlət proqramında da süni mayalanma işinin səmərəliliyinin artırılması məqsədilə keyfiyyətli toxum bankının yaradılması, bu sahə üzrə mütəxəssislərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, səyyar süni mayalanma xidmətinin göstərilməsinə diqqət daha da artırılacaq. Proqramda məhsuldarlığı daha da yüksəltmək məqsədilə müasir standartlara uyğun özəl iri damazlıq təsərrüfatlarının yaradılmasının dəstəklənməsi nəzərdə tutulub. Heyvandarlıqla məşğul olan sahibkarların bu sahəyə olan marağının artırılması məqsədilə heyvandarlıq məhsullarının tədarükü, muxtar respublikanın şəhər və rayonlarında özəl ət kəsimi məntəqələrinin yaradılması daxili bazara töhfəsini verəcək. Həmçinin Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti kafedrasının maddi-texniki bazasının gücləndirilməsi, Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələr üçün təcrübi dərslərin keçilməsinin davam etdirilməsi bu sahənin gələcək inkişafı ilə nəticələnəcək. Heyvandarlıqda sığorta işinin təşkili, arıçılığın inkişafı, arı xəstəliklərinin qarşısının alınması üçün qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı sahibkarlar arasında maarifləndirmə tədbirlərinin aparılması davamlı xarakter alacaq. Baytarlıq təbabətinin müxtəlif sahələri üzrə konfransların keçirilməsi, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin heyvandarlıq təsərrüfatlarında, istehsal və emal sexlərində tətbiqi, baytarlıq preparatlarının, yemlərin və yem əlavələrinin, biostimulyatorların və hormonların təhlükəsizliyinə və keyfiyyətinə nəzarətin təşkili diqqətdə saxlanılacaq. Heyvanların yaylaq şəraitində profilaktik peyvəndləməyə cəlb edilməsi, müşahidə olunan xəstəliklərə qarşı operativ tədbirlərin həyata keçirilməsi, sərhəd yaşayış məntəqələrində, yataq yerlərində dezinfeksiya tədbirlərinin aparılmasının nəzarətdə saxlanılması üçün də qarşıya bir sıra vəzifələr qoyulub.

Ümumiyyətlə, dövlət proqramının əsas məqsədi kənd təsərrüfatı heyvanlarının bütün xəstəliklərinə qarşı lazımi baytarlıq tədbirlərinin vaxtında həyata keçirilməsi ilə yanaşı, heyvan mənşəli qida məhsullarının ilkin istehsalı, tədarükü, emalı, qablaşdırılması, saxlanılması, daşınması, dövriyyəsi də daxil olmaqla, qida zəncirinin bütün mərhələlərində təhlükəsizliyə nail olunmaqla əhalinin ərzaq məhsullarına olan tələbatının yerli, ekoloji təmiz məhsullar hesabına təmin edilməsidir.

Son olaraq bildirmək istəyirəm ki, dövlət proqramı bu sahədə yeni bir mərhələnin təməli kimi heyvandarlığın inkişafına, məşğul əhalinin sayının artımına və nəticə etibarilə, maddi nemətlər bolluğunun yaranmasına səbəb olacaqdır.

***– Müsahibə üçün sağ olun.***

✍ **Muxtar MƏMMƏDOV**

*Naxçıvan Dövlət Universitetində "Smart tələbə kartları üzrə beynəlxalq təcrübə, layihənin ölkə və tələbələr üçün üstünlükləri" mövzusunda təqdimat keçirilib.*

# Smart tələbə kartları ilə bağlı təqdimat olub



Universitetin rektoru, dosent Elbrus İsayev təqdim edilən smart tələbə kartlarının elektron universitet sistemini daha da gücləndirəcəyinə inandığını qeyd edib və layihənin bütün tərəfdaşlarına təşəkkürünü bildirib. Vurğulanıb ki, smart tələbə kartlarının hazırlanması Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində həyata keçirilir.

Nağdsız ödənişlər sahəsində Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin gördüyü işlər haqqında məlumat verən Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elvin Axundov qeyd edib ki, muxtar respublikada "nağdsız cəmiyyət"in formalaşdırılması, nağdsız ödənişlərin həcminin artırılması muxtar respublika rəhbəri tərəfindən diqqətdə saxlanılan əsas məsələlərdəndir. Məhz bunun nəticəsidir ki, muxtar respublikamızda nağdsız ödənişlərin iqtisadiyyatdakı çəkisini artırmaq üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı", 2016-2018-ci illərdə "Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq olunub və uğurla icra edilməkdədir.

Azərbaycan Respublikası Mərkəzi Bankının Ödəniş sistemləri və Hesablaşmalar Departamentinin Milli Ödəniş sisteminin inkişafı şöbəsinin rəisi Ramil Mahmudov dövlət proqramı haqqında məlumat verərək qeyd edib ki, proqramın strateji məqsədi vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin genişləndirilməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və nəticədə, bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsidir. Vurğulanıb ki, bu layihə müasir ödəniş mədəniyyətinə malik yeni nəslin yetişməsində, ölkədə rəqəmsal ödəniş ekosisteminin inkişafına mühüm dəstək olacaq. Eyni zamanda ali təhsil məktəblərinin tələbələrinin bu layihəyə cəlb edilməsi, bütövlükdə, təhsillə bank sistemi arasında sıx əməkdaşlığa yeni imkanlar yaradacaq.

Beynəlxalq praktika haqqında çıxış edən "Mastercard" təşkilatının Azərbaycan təmsilçisi Emil Zeynalov ölkə miqyasında belə bir layihənin reallaşdırılmasında iştirak etdiklərindən qürur duyduqlarını bildirib və yaradılan məhsulun tələbələrə verəcəyi üstünlüklərdən danışıb.

"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Ödəniş kartları şöbəsinin müdiri Səbuhi Xəlilov məhsul haqqında təqdimatla çıxış edib. Təqdimatda bildirilib ki, smart tələbə kartı vasitəsilə tələbələr təqaüdlərini alacaq, ölkə daxilində və xaricdə həmin kartlarla ödənişlər həyata keçirə biləcəklər. Həmçinin regionlarda yaşayan valideynlər övladlarına rahatlıqla maliyyə vəsaiti göndərə biləcəklər. Tələbələrin smartkart vasitəsilə universitetə, kitabxanaya və oxu zallarına girişi də təmin olunacaq. Gələcəkdə smart tələbə kartının əhatə imkanlarının daha da genişləndirilməsi, ictimai nəqliyyatda, tələbələr üçün xüsusi endirim kampaniyalarında və digər xidmət sahələrində istifadə olunmasının nəzərdə tutulduğu vurğulanıb. Qeyd edək ki, layihə Təhsil Nazirliyi, Mərkəzi Bank, "Mastercard" və "NaxçıvanBank"ın dəstəyi ilə həyata keçirilir.

**Səadət ƏLİYEVA**

# İcbari tibbi sığortanın tətbiqi ilə bağlı növbəti tədbir



“Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 26 dekabr tarixli Sərəncamından irəli gələn məsələlərin icrasını təmin etmək üçün Naxçıvan şəhər Əliabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə əhali arasında maarifləndirmə tədbiri keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyəti aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri İsmayıl Gülməmmədov açıb. O, icbari tibbi sığortanın əhəmiyyəti barədə danışıb, bu istiqamətdə görülən işləri diqqətə çatdırıb, keçirilən tədbirlərin önəmini vurğulayıb.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İcbari tibbi sığorta işinin təşkili şöbəsinin müdiri Vüsal Məmmədov çıxışında bildirib ki, tədbirin keçirilməsində məqsəd əhalini icbari tibbi sığortanın tətbiqi, tibbi xidmətin təşkili, xidmətlər zərfi, sığortaolunanların tibb müəssisəsində hərəkəti, müştərək maliyyələşmə məbləği, 1 aprel 2020-ci il tarixdən toplanmağa başlayacaq sığorta haqları barəsində ətraflı məlumatlandırmaqdır.

Qeyd edilib ki, Ali Məclis Sədrinin müvafiq sərəncamına uyğun olaraq 5 fevral 2020-ci il tarixdən Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi, Ağciyər Xəstəlikləri Dispanseri və Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinə publik hüquqi şəxs statusu verilib. Həmin xəstəxanalar da icbari tibbi sığortanın tətbiqində iştirak edən tibb müəssisələri sırasına daxil olub.

Sonra agentliyin əməkdaşları Nazəni Rüstəmlinin ”İcbari tibbi sığortada tibbi xidmətin təşkili”, Çilənay Qurbanlının “Sığortaolunanın tibb müəssisəsində hərəkəti” mövzularında çıxışları dinlənilib. Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb.

Qeyd edək ki, analoji tədbirlər “Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi” publik hüquqi şəxsində, Babək rayonunun Payız və Cəhri kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində də keçirilib.

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 mart 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq əmlaklar | Əmlakın hüquqi ünvanı | Torpağın sahəsi (ha) | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faizi həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, 10-cu küçə, 10 | 987 kv.metr | 270.000 | 13.500 |
| 2. | Yaşayış sahəsi | Şahbuz rayonu, Biçənək kəndi | 6229 kv.metr | 310.000 | 15.550 |
| 3. | Yaşayış sahəsi | Şahbuz şəhəri, Bakı küçəsi döngə 1, ev 5 | 343.3 kv.metr | 120.000 | 6.000 |
| 4. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, İstiqlal küçəsi bina 103, ev 35 | 59.58 kv.metr | 180.000 | 9.000 |
| 5. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, İstiqlal küçəsi bina 103, ev 24 | 28.78 kv.metr | | |
| 6. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, İstiqlal küçəsi bina 103, ev 23 | 43.41 kv.metr | | |
| 7. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, 20 Yanvar küçəsi 14 | 1418 kv.metr | 580.000 | 29.000 |
| 8. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, 20 Yanvar küçəsi döngə 1, ev 2 | 825 kv.metr | 270.000 | 13.500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 13 mart 2020-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 17 mart 2020-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 mart 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitələri | Hüquqi ünvan | Nəqliyyatın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 2007-ci il buraxılışlı Mercedes 906KA30 markalı vaqon | Naxçıvan şəhəri | 18000 | 1800 |
| 2. | 2006-cı il buraxılışlı Volvo FM-4X2T markalı yük avtomobili | Naxçıvan şəhəri | 45000 | 4500 |
| 3. | 2009-cu il buraxılışlı Hyundai ACCENT markalı minik avtomobili | Naxçıvan şəhəri | 10000 | 1000 |
| 4. | 2010-cu il buraxılışlı Vaz 2107 markalı minik avtomobili | Naxçıvan şəhəri | 5000 | 500 |
| 5. | 2011-ci il buraxılışlı Hyundai HD 72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 20000 | 2000 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 13 mart 2020-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 17 mart 2020-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Bir əsər-bir həyat” adlı xeyiriyyə sərgi-satışı təşkil olunub.***

# “Bir əsər-bir həyat” adlı xeyriyyə sərgi-satışı təşkil edilib



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva qeyd edib ki, insanoğlu doğulandan bəri xəstəliklərdən sığortalanmayıb. Müəyyən vaxt kəsiklərində hər hansı xəstəlikdən əziyyət çəkə bilirik. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda səhiyyənin inkişafına diqqət və qayğı göstərilir. Tibbdə ən çətin xəstəliklərin müalicə yolları tapılıb. Ağır xəstəlikdən əziyyət çəkən bir azyaşlının da mütləq şəfa tapacağına inanırıq.

Bildirilib ki, sərgi-satışda 32 naxçıvanlı rəssamın aplikasiya, viraj tipli, daş üzərində oyma, toxuma, tikmə və digər sənət növlərində hazırlanmış əsərlərindən ibarət 44 əl işi nümayiş etdirilir. Ülviyyə Həmzəyeva tədbirdə iştirak edən və öz dəstəyini göstərən təşkilatlara minnətdarlığını bildirib.

Qeyd edək ki, satışdan əldə olunan vəsait beyin şişindən əziyyət çəkən Babək rayon Payız kənd sakini, 10 yaşlı Təranə Allahverdiyevanın müalicəsinə sərf olunacaq.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Yeni nəşrin təqdimatı keçirilib



Fevralın 25-də Naxçıvan Dövlət Filarmoniyasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilovun yeni işıq üzü görən “Azərbaycan xalq mahnıları – a capella” kitabının təqdimatı keçirilib.




Tədbiri giriş sözü ilə açan Mədəniyyət naziri Natəvan Qədimova qeyd edib ki, bu günlərdə Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr olunan bu kitabda Azərbaycan xalq musiqisinin müşayiətsiz xor janrı olan “a capella” ilə təqdim edilir. Polifoniyanın ilkin nümunələrinə aid olan bu janr bənzərsiz və əvəzolunmaz bədii dəyərə malik olduğu üçün müstəqil bir musiqi janrı kimi dövrümüzə qədər qorunub saxlanılıb.

Nazir bildirib ki, dünya musiqisində olduğu kimi, Azərbaycan musiqi tarixində də digər musiqi janrlarına nisbətən bu sahədə yaradılan nümunələrin sayı olduqca azdır. Bu baxımdan Yaşar Xəlilovun təqdim etdiyi kitab Azərbaycan professional musiqisi üçün bu janrda yazılmış dəyərli kitablardan hesab edilə bilər. Müəllifin də qeyd etdiyi kimi, “a capella” zəngin çalarlara və əvəzolunmaz bədii dəyərə məxsus olduğu üçün onun qorunması və bu janrda əsərlərin ərsəyə gətirilməsi vacibdir.

Qeyd olunub ki, böyük azərbaycanlı alim Əllamə Seyyid Məhəmmədhüseyn Təbatəbainin xatirəsinə ithaf olunan “Azərbaycan xalq mahnıları – a capella” musiqi kitabı Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə dərs vəsaiti olaraq çap edilib. Yeni nəşr son illərdə Naxçıvan musiqi mədəniyyəti sahəsində musiqinin inkişafı istiqamətində çap olunmuş dəyərli kitabların davamıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində işıq üzü görmüş bu kitab ümid edirik ki, professional xor kollektivlərində və musiqi təhsili verən məktəblərdə istifadə edilməklə konsert proqramlarının zənginləşməsinə, həmçinin gələcəkdə bu üsluba marağın artmasına və geniş formada tanınmasına səbəb olacaqdır.

Nazir çıxışının sonunda kitabın müəllifi Yaşar Xəlilovu təbrik edib və Naxçıvanda musiqi mədəniyyətinin inkişafına və yaşadılmasına göstərilən diqqət və qayğıya görə bütün tədbir iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov çıxış edərək təhsil müəssisələrində dərs vasitəsi kimi istifadə edilməsi nəzərdə tutulan yeni nəşrin səciyyəvi cəhətlərindən danışıb.

Müəllif kitab təqdimatının təşkilatçılarına öz minnətdarlığını bildirib.

Tədbir təqdimatı keçirilən kitabın mədəniyyət müəssisələrinə hədiyyə edilməsi və Naxçıvan Dövlət Filarmoniyasının Xor kollektivi tərəfindən kitabda əks olunan xalq mahnılarının səsləndirilməsi ilə yekunlaşıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi işaxtaranları Naxçıvan Regional Peşə Tədris Mərkəzində dərzi peşəsi üzrə kurs keçməyə dəvət edir. Kursun tədris müddəti 3 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 10 mart 2020-ci il tarixədək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə Məşğulluq mərkəzlərinə təqdim etməlidirlər:

*1.Yaşayış yerindən arayış*
*2.Şəxsiyyət vəsiqəsinin surəti*
*3.Tibbi arayış*

**Əlaqə telefonu: 545-32-33**

### *İtmişdir*

Babək rayonu, Badaşqan kənd sakini Əzimli Sübhan Əbülfəz oğlunun adına 23 yanvar 2013-cü ildə verilmiş 103013003996 reyestr nömrəli torpaq sahəsinin plan və ölçüsü, 11 fevral 2013-cü ildə verilmiş MH-0029255 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, 9-cu məhəllədə qeydiyyatda olan İsmayılova Zinyət Müseyib qızının adına olan 10778 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Türkiyə vətəndaşı Adak Agit Teyyarın adına Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Abbasov Xaliq Dilavər oğlunun adına olan Şərur rayon Çərçiboğan kəndində yerləşən fərdi yaşayış evinin 102013003854-10301 reyestr nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Hüseynov Elsevər Kazım oğlunun adına verilmiş veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babayev Ceyhun Adil oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 194